**Elnarə Əhməd ƏHMƏDOVA**
Qərbi Kaspi Universiteti, Politologiya, Psixologiya və Sosial iş kafedrasının dosenti, p.ü.f. d.
E-mail: elnara.akhmedova@wu.edu.az

**Fidan Mədət NOVRUZOVA**
Qərbi Kaspi Universiteti, Politologiya, Psixologiya və Sosial iş kafedrasının magistrı
E-mail: fidan.novruzova.02@mail.ru

# AİLƏ ZORAKILIĞININ TƏDQİQİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə ailə zorakılığının psixoloji, sosial və mədəni determinantları, onun yaranma mexanizmləri və müasir tədqiqat istiqamətləri araşdırılmış, ailə zorakılığı fərdi aqressiya aktı olmaqla yanaşı sistemli münasibətlər pozuntusu və sosial-psixoloji disbalansın nəticəsi kimi təhlil edilmişdir. Məqalədə, eyni zamanda, psixoanalitik, koqnitiv-bihevioral, sistemli və feminist yanaşmalar müqayisəli şəkildə şərh olunmuşdur. Xüsusilə, uşaqlıq travmaları, empatiya çatışmazlığı, güc və nəzarət ehtiyacı, sosial öyrənmə və gender stereotiplərinin zorakılıq davranışına təsiri elmi əsaslarla izah edilib. Məqalənin məqsədi ailə zorakılığının kompleks fenomen kimi multidissiplinar çərçivədə öyrənilməsinin vacibliyini əsaslandırmaqdır.

**Açar sözlər:** ailə zorakılığı, aqressiya, travma, sosial öyrənmə, gender rolları, empatiya, psixoloji amillər.

**UOT:** 316.362:159.922.1
**JEL:** J12, D91
**DOI:** https://doi.org/10.54414/STMG6859

## Giriş

Ailə zorakılığı müasir cəmiyyətin ən ciddi sosial-psixoloji problemlərindən biridir. O, yalnız fiziki zorakılıqla məhdudlaşmır; psixoloji, emosional, iqtisadi və cinsi zorakılıq formalarını da əhatə edir. Ailə daxilində baş verən zorakılıq fərdin psixi sağlamlığına, uşaqların inkişafına və bütövlükdə cəmiyyətin sosial strukturuna dərin təsir göstərir.

Psixoloji baxımdan ailə zorakılığı güc balansının pozulması, nəzarət ehtiyacının patologiyaya çevrilməsi və emosional tənzimlənmənin zəifləməsi ilə əlaqəlidir. Zorakılıq çox zaman “Münasibət konflikti” kimi təqdim edilsə də, əslində sistemli və təkrarlanan davranış modelidir. Bu davranış modeli fərdin daxili konfliktləri, travmatik keçmişi və sosial öyrənmə təcrübələri ilə sıx bağlıdır.

Ailə zorakılığının tədqiqi yalnız hüquqi çərçivədə deyil psixoloji və sosial kontekstdə də aparılmalıdır. Çünki zorakılıq aktının arxasında duran motivlər fərdin şəxsiyyət quruluşu, emosional sabitliyi və sosial mühitlə qarşılıqlı münasibətlər sistemi ilə şərtlənir.

Ailə zorakılığı yalnız fiziki təzyiq və ya hərəkətlərdən ibarət deyil; o, həmçinin psixoloji, emosional, iqtisadi və cinsi zorakılığı əhatə edir. Bu fenomen qurbanın özünə inamını, sosial əlaqələrini və həyat keyfiyyətini ciddi şəkildə təsir edir. Statistik tədqiqatlar göstərir ki, dünya üzrə hər üç qadından biri həyatında ən azı bir dəfə ailə zorakılığına məruz qalır və uşaqların təqribən 70%-i bu zorakılığa şahid olurlar [8, s.12].

Ailə zorakılığı uzun müddətli psixoloji təsirlərə malikdir. Qurbanlar arasında Depressiya, Posttravmatik stres pozuntusu, Aqressiya və Sosial təcrid halları tez-tez müşahidə olunur. Uşaqlar üçün, bu, gələcəkdə emosional və sosial bacarıqların pozulması, davranış problemləri və aqressiv davranış modellərinin formalaşması ilə nəticələnir.

Müasir tədqiqatlar göstərir ki, ailə zorakılığı çoxfaktorlu hadisədir. Burada fərdi psixoloji xüsusiyyətlər, ailə sistemi, sosial mühit və mədəni stereotiplər qarşılıqlı təsir göstərir. Məsələn, qurban və ya zorakılıq törədən fərdin uşaqlıq dövründə yaşadığı travmalar, ailə içində öyrəndiyi davranış nümunələri, həmçinin, cəmiyyətin gender rolları və zorakılığı normal sayan baxışları davranışın təkrar olunmasına səbəb ola bilər. Psixoloji baxımdan ailə zorakılığı fərdin empatiya səviyyəsinin, özünüqiymətləndirməsinin və emosional tənzimləmə bacarıqlarının pozulması ilə sıx bağlıdır. Eyni zamanda, zorakılıq göstərən şəxslərin çoxunda güc və nəzarət əldə etmə ehtiyacı, frustrasiya ilə başa çıxma problemləri və daxili boşluq hissi müşahidə olunur.

Bu baxımdan ailə zorakılığı yalnız hüquqi və ya sosial problem kimi deyil, həm də dərin psixoloji və davranış təhlili tələb edən kompleks sosial-psixoloji fenomen kimi qiymətləndirilməlidir. Ona görə də tədqiqatların məqsədi zorakılığın səbəblərini anlamaqla yanaşı, həmçinin, profilaktika, müdaxilə və reabilitasiya proqramlarını elmi əsaslarla planlaşdırmaqdır.

## Əsas hissə

### Ailə zorakılığının psixoloji mahiyyəti

Psixoanalitik yanaşmaya görə (Z. Freyd), zorakılıq davranışı bastırılmış aqressiv impulsların və erkən uşaqlıq konfliktlərinin nəticəsi ola bilər [5, s.54]. “İd”in impulsiv enerjisi “Super-Eqo” tərəfindən adekvat tənzimlənmədikdə fərd aqressiyanı münasibətlərdə dominantlıq vasitəsinə çevirə bilər.

Frustrasiya-aqressiya nəzəriyyəsinə görə (Dollard və başqaları) sosial və şəxsi ehtiyacların davamlı bloklanması aqressiv reaksiyalara səbəb olur [4, s.41]. Ailə daxilində iqtisadi çətinliklər, sosial status itkisi və ya emosional rədd edilmə zorakı davranışın katalizatoruna çevrilə bilər.

Sosial öyrənmə nəzəriyyəsi (A. Bandura) ailə zorakılığını modelləşdirilmiş davranış kimi izah edir [1, s.38]. Uşaq valideynlər arasında zorakılığa şahid olduqda bu davranışı konflikt həlli üsulu kimi mənimsəyə bilər. Zorakılıq normallaşdırıldıqda və cəzasız qaldıqda davranış möhkəmlənir.

Humanist yanaşmaya görə (A. Maslou) fərdin təhlükəsizlik, özünə hörmət və özünüaktuallaşdırma tələbatları ödənilmədikdə daxili disbalans yaranır [7, s.112]. Bu disbalans aqressiv nəzarət davranışları ilə kompensasiya edilə bilər. Təhlükəsizlik, hörmət və özünüaktuallaşdırma tələbatları təmin edilmədikdə fərd daxili boşluğu və nəzarət itkisini kompensasiya etmək üçün zorakı davranışa yönələ bilər.

Ailə zorakılığı çox zaman daxili psixoloji konfliktlər, frustrasiya, aqressiya və nəzarət ehtiyacının nəticəsi kimi meydana çıxır. Psixoanalitik yanaşmaya görə (Freyd, 1923) insanın “İd”, “Eqo” və “Super-Eqo” sistemləri arasındakı disbalans impulsiv və destruktiv davranışlara səbəb ola bilər. “İd” təməl instinktləri, “Super-Eqo” isə sosial və mənəvi dəyərləri təmsil edir. Bu iki qüvvə arasında “Eqo” vasitəçi rolunu oynayır. Zorakılıq davranışları, xüsusilə, “İd” impulslarının “Super-Eqo” tərəfindən effektiv tənzimlənmədiyi hallarda ortaya çıxır.

Koqnitiv-bihevioral yanaşmada [1] ailə zorakılığı öyrənilmiş davranış kimi izah olunur. Uşaqlıqda valideynlərin və ya digər yetkinlərin zorakılığa şahid olması bu davranışı normal və konfliktin həll üsulu kimi dərk etməyə səbəb olur. Eyni zamanda, əgər zorakılıq müəyyən qazanc və ya üstünlük gətirirsə (məsələn, qorxu yaratmaqla nəzarət əldə etmək), davranış möhkəmlənir.

Frustrasiya-aqressiya nəzəriyyəsinə görə [4] fərd davamlı şəkildə sosial və şəxsi ehtiyacları təmin olunmadıqda aqressiv reaksiyalar göstərir. Ailə daxilində emosional rədd edilmə, valideynlərarası zorakılıq, iqtisadi çətinlik və ya ailə resurslarının məhdudluğu zorakılıq riskini artırır.

Neyropsixoloji tədqiqatlar göstərir ki, impuls nəzarətinin zəifliyi, frontal korteks və limbik sistem arasındakı disbalans, emosional tənzimləmə çətinlikləri zorakılıq davranışının neyrobioloji əsasını təşkil edir. Bu xüsusiyyətlər zorakılıq törədən fərdlərdə tez-tez müşahidə olunur və prefrontal korteks funksiyalarının zəifliyi, empatiya çatışmazlığı və sosial məsuliyyətin aşağı səviyyəsi ilə birbaşa əlaqəlidir.

### Ailə zorakılığının tədqiqi istiqamətləri

Müasir elmi ədəbiyyatda ailə zorakılığı aşağıdakı istiqamətlər üzrə araşdırılır:

1. Psixodinamik istiqamət – Zorakılığın köklərini erkən bağlanma travmalarında və mənlik strukturlarının zədələnməsində axtarır. Empatiya çatışmazlığı və narsistik xüsusiyyətlər risk faktorları kimi qiymətləndirilir.

2. Koqnitiv-bihevioral istiqamət – Zorakılığı disfunksional düşüncə sxemləri və yanlış inanclarla əlaqələndirir. “Güc tətbiqi hörmət qazandırır” kimi idrak təhrifləri zorakılığın davamlılığını təmin edir.

3. Sistemli yanaşma – Ailə zorakılığını ailə sisteminin disfunksiyası kimi təhlil edir. Rolların sərt bölgüsü və emosional ünsiyyətin pozulması əsas risk faktorlarıdır.

4. Feminist və gender yanaşması – Zorakılığı patriarxal struktur və gender bərabərsizliyi ilə əlaqələndirir. Sosial stereotiplər zorakılığın legitimləşdirilməsinə zəmin yarada bilər.

5. Neyropsixoloji istiqamət – İmpuls nəzarətinin zəifliyi, frontal korteks funksiyalarının pozulması və emosional tənzimlənmə çətinlikləri aqressiv davranış riskini artırır.

Ailə zorakılığı fərdin psixoloji inkişafında yaranan çoxşaxəli disbalans nəticəsində meydana gələ bilər. Psixodinamik perspektivdən baxdıqda zorakılığı törədən şəxslərdə uşaqlıq travmaları, valideyn-uşaq münasibətlərində laqeydlik, həmçinin, mənlik strukturunda yaranan boşluqlar əhəmiyyətli rol oynayır. Belə ki, uşaqlıq dövründə davamlı olaraq emosional dəstəkdən məhrum olan fərdlər empatiya və sosial məsuliyyət hissində çatışmazlıqlar yaşayır, nəticədə, gələcəkdə başqasına zərər vermək onların daxili psixoloji baryerini zəiflədir. Psixodinamik yanaşma göstərir ki, “İd”, “Eqo” və “Super-Eqo” sistemləri arasındakı disbalans zorakılıq davranışının psixoloji əsasını təşkil edir; “İd”in impulsları sosial və mənəvi normalarla tənzimlənmədikdə fərd aqressiv davranışlara meyllənir.

Eyni zamanda, ailə zorakılığı koqnitiv-bihevioral perspektivdən öyrənilmiş davranış modeli kimi də qiymətləndirilir. Uşaqlar valideynlərin zorakı davranışlarını müşahidə etdikdə bu davranışları təqlid etməyə başlayır və nəticədə zorakılıq gələcəkdə onların şəxsi davranış repertuarına daxil olur. Sosial öyrənmə nəzəriyyəsinə görə əgər zorakılıq müəyyən bir nəticə (Məsələn, itaət, güc, status və ya maddi üstünlük) gətirirsə, bu davranış təkrar olunmaq üçün gücləndirilmiş olur. Bu baxımdan, koqnitiv-bihevioral müdaxilələr zorakılığı törədən şəxslərin düşüncə və davranış modellərini dəyişdirməyə, aqressiv reaksiyaları tənzimləməyə və konflikt həllində alternativ yolları öyrətməyə xidmət edir.

Bundan əlavə, sistemli yanaşma ailə zorakılığını təkcə fərdin problemi kimi deyil, ailə sisteminin disfunksiyası kontekstində də izah edir. Ailə üzvləri arasındakı qeyri-bərabər rol bölgüsü, pozulmuş kommunikasiya, sərt iyerarxiya və valideyn-uşaq münasibətlərində rolların qeyri-müəyyənliyi zorakılıq riskini artırır. Sistem terapiya ailə üzvlərinin qarşılıqlı təsirini və kommunikasiya nümunələrini təhlil edərək ailə içi rol balansını bərpa etməyə və zorakılığın davamlılığını azaltmağa yönəlir. Bu yanaşma, həmçinin, ailə daxilindəki emosional gərginliyi azaldaraq qurbanın və zorakılığı törədən şəxsin psixososial adaptasiyasını yaxşılaşdırmağa xidmət edir.

Feminist və gender perspektivi ailə zorakılığını patriarxal strukturlar və gender bərabərsizliyi çərçivəsində izah edir. Bu yanaşmaya görə cəmiyyətdə qadınlara qarşı zorakılığı normal və ya legitim hesab edən stereotiplər zorakılığın davamlılığını təmin edir. Patriarxal dəyərlər və sosial stereotiplər kişiləri dominant və qadınları itaətkar rola yönləndirir; nəticədə qadın qurbanlar bu davranışa qarşı müdafiə mexanizmlərini yetərincə inkişaf etdirə bilmir. Feminist yanaşma zorakılığın qarşısının alınması üçün hüquqi maarifləndirmə, gender rolları barədə ictimai təhsil və qadınların sosial müdafiəsini gücləndirən tədbirləri vurğulayır.

Neyropsixoloji perspektiv isə ailə zorakılığı törədən şəxslərdə frontal korteks və limbik sistem arasındakı disbalansı göstərir. Frontal korteksin funksional zəifliyi impuls nəzarətinin pozulmasına, limbik sistemin isə emosional reaktivliyin artmasına səbəb olur. Bu neyrobioloji faktorlar, xüsusən, aqressiv və zorakı davranışların yaranmasını və davam etməsini izah edir. Neyropsixoloji müdaxilələr fərdin impuls nəzarətini və emosional tənzimləmə qabiliyyətini gücləndirməyə yönəlir, həmçinin, zorakılığın neyrobioloji əsaslarının kompensasiyasına xidmət edir.

Beləliklə, ailə zorakılığı yalnız bir faktorun nəticəsi deyil, müxtəlif psixoloji, sosial, mədəni və neyrobioloji amillərin qarşılıqlı təsirindən yaranan kompleks fenomen kimi qiymətləndirilməlidir. Psixodinamik, koqnitiv-bihevioral, sistemli, feminist/gender və neyropsixoloji yanaşmalar birləşdirildikdə zorakılığın kök səbəbləri daha dərindən anlaşıla və effektiv profilaktik və reabilitasiya strategiyaları işlənib hazırlana bilər. Bu multidissiplinar yanaşma həm fərdi psixoloji müdaxilələr, həm də ailə və cəmiyyət səviyyəsində preventiv tədbirlər üçün elmi əsas təmin edir.

**Sosial və mədəni kontekst**

Ailə zorakılığı sosial-iqtisadi faktorlarla sıx bağlıdır. Yoxsulluq, işsizlik, sosial izolyasiya və hüquqi maariflənmənin aşağı səviyyəsi zorakılıq hallarının artmasına səbəb ola bilər [6, s.33].

Mədəni mühitdə "Ailə sirri" anlayışı və zorakılığın normallaşdırılması problemin gizli qalmasına gətirib çıxarır. Bu isə qurbanların yardım axtarma davranışını zəiflədir.

Uşaqların zorakılığa şahid olması gələcəkdə aqressiv davranış və ya Posttravmatik stres pozuntusuna səbəb ola bilər. Bu baxımdan ailə zorakılığı yalnız iki fərd arasında deyil, nəsillərarası ötürülən psixoloji model kimi qiymətləndirilir.

Mədəni kontekstdə gender rollarının və patriarxal stereotiplərin zorakılığı təşviq edən rolu böyükdür. Belə ki, bəzi cəmiyyətlərdə kişilər üçün aqressiv davranış güc və nüfuz simvolu kimi qəbul edilir. Bu stereotiplər həm də zorakılığın cəzasız qalmasına zəmin yaradır və qurbanı müdafiəsiz qoyur.

**Nəticə**

Ailə zorakılığı çoxfaktorlu və kompleks sosial-psixoloji hadisədir. Onun tədqiqi yalnız hüquqi və ya sosial yanaşma ilə məhdudlaşmamalı, psixoloji, neyrobioloji və mədəni aspektlərin inteqrativ təhlilinə əsaslanmalıdır.

Profilaktik tədbirlər erkən müdaxilə proqramları, ailədaxili ünsiyyət bacarıqlarının inkişafı, gender bərabərliyi barədə maarifləndirmə və psixoterapevtik dəstək mexanizmləri ilə gücləndirilməlidir. Zorakılığın qarşısının alınması üçün multidissiplinar əməkdaşlıq və elmi əsaslı reabilitasiya proqramları xüsusi əhəmiyyət daşıyır. Beləliklə, ailə zorakılığının tədqiqi yalnız aqressiv davranışın izahı deyil, həm də cəmiyyətin psixoloji sağlamlığının qorunması istiqamətində fundamental elmi və praktik əhəmiyyətə malikdir.

Ailə zorakılığı yalnız fərdin psixoloji və fiziki vəziyyətinə deyil, həm də bütün sosial sistemə təsir edən kompleks bir fenomen kimi qiymətləndirilməlidir. Tədqiqatlar göstərir ki, zorakılıq uzunmüddətli psixoloji travmalara səbəb olur, qurbanlarda depressiya, posttravmatik stres pozuntusu, aqressiya, özünüqiymətləndirmə problemləri və sosial təcrid halları ilə nəticələnir [8, s.44].

Uşaqlar üçün ailə zorakılığı daha dramatik təsir göstərir; onlar aqressiv davranış modellərini mənimsəyir, emosional və sosial bacarıqlarda geriləmə yaşayır və gələcəkdə şəxsi münasibətlərdə zorakılıq davranışlarını təkrarlama riskini artırırlar. Bu səbəbdən ailə zorakılığı nəsillərarası sosial və psixoloji dövrlərin davamlılığına təsir edən mühüm faktor kimi qiymətləndirilir.

Müasir elmi yanaşmalar ailə zorakılığının biopsixososial model çərçivəsində öyrənilməsinin vacibliyini göstərir. Bu model fərdin biologiyası (Neyropsixoloji xüsusiyyətlər, impuls nəzarəti), psixoloji strukturu (Mənlik, özünüqiymətləndirmə, emosional tənzimləmə) və sosial mühiti (Ailə sistemi, sosial və mədəni stereotiplər, iqtisadi vəziyyət) birləşdirir. Bu yanaşma tədqiqatçılara zorakılığın səbəblərini daha dəqiq anlamağa və profilaktik strategiyalar hazırlamağa imkan verir. Tədqiqatlar, həmçinin, göstərir ki, ailə zorakılığına qarşı mübarizə çoxsəviyyəli müdaxilə tələb edir:

1. Fərdi müdaxilə - qurban və zorakılıq törədən şəxslər üçün psixoloji dəstək, travma terapiyası, emosional tənzimləmə və sosial bacarıqların inkişafı.
2. Ailə sistemi müdaxiləsi - valideyn-uşaq münasibətlərinin yenidən qurulması, kommunikasiya strategiyalarının inkişafı, ailə üzvləri arasında rola dair balansın təmin olunması.
3. Cəmiyyət səviyyəsində - gender bərabərliyi haqda maarifləndirmə, zorakılığın normallaşmasının qarşısını alma, hüquqi maarifləndirmə və sosial dəstək proqramlarının gücləndirilməsi.

Bundan əlavə, elmi tədqiqatlar göstərir ki, ailə zorakılığı ilə mübarizə proqramları erkən yaşdan başlarsa, effektivlik əhəmiyyətli dərəcədə artır. Uşaqlara sosial-emosional bacarıqların öyrədilməsi, valideynlərin psixoloji maarifləndirilməsi və cəmiyyətdə gender rolları ilə bağlı stereotiplərin azaldılması zorakılığın gələcək nəsillərə ötürülməsini əhəmiyyətli dərəcədə azaldır. Beləliklə, ailə zorakılığının öyrənilməsi yalnız fərdlərin psixoloji sağlamlığını qorumaq üçün deyil, həm də sosial ədalət, gender bərabərliyi və cəmiyyətin uzunmüddətli rifahı baxımından strateji əhəmiyyət daşıyır. Multidissiplinar yanaşma- psixoloji, neyrobioloji, sosial və mədəni faktorların inteqrativ təhlili ailə zorakılığının qarşısının alınması və reabilitasiya proqramlarının elmi əsaslarla qurulması üçün vacibdir.

Bu nəticələr göstərir ki, ailə zorakılığı yalnız hüquqi məsələ deyil, həm də psixoloji və sosial sistemin sağlamlığını əks etdirən əhəmiyyətli bir göstəricidir. Tədqiqatların nəticələri cəmiyyətin zorakılıqla mübarizə strategiyalarını elmi əsaslarla inkişaf etdirməyə, qurbanların müdafiəsini gücləndirməyə və gələcək nəsillərin sağlam psixososial inkişafını təmin etməyə xidmət edir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Bandura A. Social Learning Theory. Englewood Cliffs: Prentice-Hall, 1977.
2. Beck A.T. Cognitive Therapy and Emotional Disorders. New York: International Universities Press, 1976.
3. Berkowitz L. Aggression: Its Causes, Consequences, and Control. New York: McGraw-Hill, 1993.
4. Dollard J., Doob L., Miller N. Frustration and Aggression. Yale University Press, 1939.
5. Freud S. The Ego and the Id. London: Hogarth Press, 1923.
6. Fromm E. The Anatomy of Human Destructiveness. New York: Holt, 1973.
7. Maslow A.H. Motivation and Personality. New York: Harper & Row, 1954.
8. World Health Organization. Violence against Women Prevalence Estimates, 2018. Geneva: World Health Organization, 2021.

**Elnara Ahmed AHMEDOVA**
Ph.D. in Psychology, Associate Professor of the Department of Political Science, Psychology and Social Work, Western Caspian University

**Fidan Madat NOVRUZOVA**
Master's student at the Department of Psychology and Social Work, Western Caspian University

## RESEARCH DIRECTIONS OF DOMESTIC VIOLENCE

**Summary**

The article analyzes domestic violence from psychological, social, and cultural perspectives. It examines trauma, social learning, dysfunctional cognitive patterns, and gender stereotypes as determinants of violent behavior. Classical and contemporary psychological approaches are comparatively discussed. The article emphasizes the importance of multidisciplinary research and preventive interventions in addressing domestic violence.

**Keywords:** domestic violence, aggression, trauma, social learning, gender roles, empathy, psychological factors.

**Элнара Ахмед АХМЕДОВА**
кандидат философских наук по психологии, доцент кафедры политологии, психологии и социальной работы, Западно-Каспийский Университет

**Фидан Мадат НОВРУЗОВА**
Магистрант, Кафедра политалогии, психологии и социальной работы,
Западно-Каспийский Университет

## НАПРАВЛЕНИЯ ИССЛЕДОВАНИЯ ДОМАШНЕГО НАСИЛИЯ

**Резюме**

В статье рассматриваются психологические, социальные и культурные аспекты домашнего насилия. Анализируются травматический опыт, социальное научение, когнитивные искажения и гендерные стереотипы как детерминанты насильственного поведения. Подчеркивается необходимость междисциплинарного подхода и разработки профилактических программ.

**Ключевые слова:** домашнее насилие, агрессия, травма, социальное научение, гендерные роли, эмпатия, психологические факторы.

**Daxil olub:** 05.03.2026